# Təkmil sosial-iqtisadi islahatlar öz uğurlu nəticələrini verir

## MÜSAHİBİMİZ MİLLİ MƏCLİSİN DEPUTATI, YENİ AZƏRBAYCAN PARTİYASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASININ KATİBİ, PROFESSOR ELMAN NƏSİROVDUR



***-Elman müəllim, bu günlərdə ölkə Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə ölkəmizin inkişafı rəqəmlər əsasında bir daha diqqətə çatdırıldı. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı...***

- Müşavirədə son altı ayın iqtisadi yekunlarına qiymət verildi. Dövlətimizin başçısı qeyd etdi ki, bütövlükdə bu altı ay bizim üçün kifayət qədər uğurlu olub və qarşımıza qoyduğumuz hədəflərə çatmışıq. Bu nəzəri fikirlərini, nəzəri mülahizələrini cənab İlham Əliyev hər zaman olduğu kimi, faktlarla, dəlillərlə təsdiqlədi. İlk növbədə onu vurğuladı ki, iqtisadiyyatımızda altı ay ərzində 2,4 faiz artım qeydə alınıb. Əsas hədəfimiz neftdən asılılığı azaltmaqdır. Biz ilk növbədə qeyri-neft sektorunun inkişafında maraqlıyıq. Bu sahədə hansı uğurları əldə edəriksə, bu o deməkdir ki, aparılan iqtisadi islahatlar artıq nəticələrini verməkdədir. Bu baxımdan 6 ayın nəticələrinə görə, qeyri- neft sektorunda 3,25 faiz artım müşahidə olunub.

Qeyri-neft sektorundan danışarkən qeyri-neft sənayesi xüsusi əhəmiyyət kəsb edir. Çünki ölkəmiz sənayeləşmə siyasətinə çox böyük önəm verir . Yeni-yeni sənaye müəssisələrinin açılması həyata keçirilir. Çox sevindirici haldır ki, müşavirədə rekord nəticə kimi qeyri-neft sənayesində 15,7 faiz artıma nail olduğumuz xüsusi vurğulandı. Son altı ayda kənd təsərrüfatında artım 13 faiz təşkil edib. Eyni zamanda, cənab İlham Əliyev vurğuladı ki, biz bu yüksək nəticəni xüsusilə bitkiçilik hesabına əldə etmişik. Bitkiçilikdə isə 25 faiz artım əldə edilib. Diqqət yetirsək, rəqəmlər inkişafın aydın mənzərəsini yaradır. Gəlin konkret olaraq kənd təsərrüfatı sektoruna nəzər salaq. Ölkə Prezidenti vurğuladı ki, nailiyyətimiz ona görə böyükdür ki, biz ilk növbədə investisiyaların cəlb olunmasına, təkmil iqtisadi islahatlara, bundan əlavə subsidiyaların verilməsinə, ən əsası iqtisadiyyatın elmi əsaslara söykənməsinə nail olmuşuq. Fikir verirsinizsə, bu, təsadüfən olmayıb. Çünki kənd təsərrüfatına elmi yanaşma olanda, yeni texnologiyalar tətbiq ediləndə, kənd təsərrüfatında əldə edilmiş ən yüksək nəticələr beynəlxalq təcrübə əsasında təhlil edildikdə, Azərbaycanın rayonları üzrə ixtisaslaşma lazımi səviyyədə həyata keçiriləndə qarşıya qoyulan hədəflərə nail olmaq qaçılmazdır. Cənab İlham Əliyev vurğuladı ki, 6 milyard dollar investisiyanın böyük bir qismi məhz qeyri-neft sektoruna yatırılıb. Qeyri-neft sektorunun inkişafına göstərilən diqqət və qayğı bu sahəyə investisiya qoyuluşuna da geniş imkanlar açır. Son 6 ayda strateji valyuta ehtiyatlarımız 4 milyard dollar artaraq 49 milyard dollara çatıb. Bu, çox yüksək göstəricidir. Dövlətimizin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir ki, bu xarici borcumuz ümumi daxili məhsulun 19 faizi həcmindədir. Dövlətimizin başçısı müşavirədə müqayisəli təhlil apararaq qeyd etdi ki, bir çox ölkələrdə, hətta bu ümumi daxili məhsulun özünə bərabərdir. Eyni zamanda, cənab İlham Əliyev onu da vurğuladı ki, bizim xarici ticarət dövriyyəmiz son 6 ayda 20 faiz artıb.

Bilirsiniz ki, iqtisadiyyatın şaxələndirilməsi, ixracyönümlü iqtisadiyyatın formalaşdırılması, “Made in Azerbaijan” adı altında məhsullarımızın dünya bazarına çıxarılması əsas hədəflərimizdəndir.

Dünyaya səs salan Azərbaycan brendləri ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində də mühüm rol oynayır. Azərbaycanın ixrac etdiyi məhsullara maraq artıb.

Müşavirədə ölkə Prezidenti sosial islahatlar paketinə də diqqət yönəltdi. Bildirdi ki, cari ilin ilk aylarından başlayaraq bu istiqamətdə çox ciddi addımlar atılır. Bu addımların anonsunu cənab İlham Əliyev keçən il - 11 aprel prezident seçkilərindən sonra vermişdir. Eyni zamanda, andiçmə mərasimində bu hədəfi açıqlamışdır ki, sosial-iqtisadi islahatların dərinləşdirilməsi həyata keçiriləcək. Bu istiqamətdə sosial islahatlar paketi xüsusi mövqe tutur. 2019-cu ilin əvvəlindən başlayaraq minimum əmək haqları artırılaraq 130 manatdan 158 manata çatdırıldı. Yəni söhbət iki dəfə artımdam gedir. Minimum pensiyalar isə 116 manatdan 200 manata çatdırıldı. Bu isə təxminən 70 faizdən çox artım deməkdir. Eyni zamanda, həssas kateqoriyadan olan insanların - müharibə əlillərinin, qaçqınların, məcburu köçkünlərin, şəhid ailələrinin, kredit sahəsində müəyyən problemləri olan insanların sosial müdafiəsinin təmin olunması istiqamətində atılan addımlara da xüsusi diqqət yönəldildi. Ümumilikdə 4 milyondan çox insan bu islahatlar nəticəsində vəziyyətini daha da yaxşılaşdırdı. Birinci paketə dövlət büdcəsindən 1,6 milyard manat vəsait ayrıldı. İkinci paket isə bir milyon iki yüz min nəfəri əhatə edib. Ümumilikdə hər iki paketə büdcəmizdən 2,3 milyard vəsait ayrıldı.

***- Müşavirədə, həmçinin biznes mühitinin yaxşılaşdırılması və yol infrastrukturunun daha bda təkmilləşdirilməsi məsələlərinə diqqət yönəldildi...***

- Son 15 ildə ölkə iqtisadiyyatına 250 milyard dollardan çox investisiya qoyulub. Bunun yarıdan çoxu xarici investisiyalardır. Bu uğurlu nəticəni hansı halda əldə etmək mümkündür? Təbii ki, bu, o halda baş verir ki, ölkədə normal, şəffaf investisiya mühiti mövcud olsun. Dünya Bankının son hesabatında Azərbaycan 10 ən islahatçı ölkə sırasında yer tutub. Eyni zamanda, biznes mühiti üçün yaradılan müsbət atmosfer çox yüksək dəyərləndirilir və Azərbaycan bu sahədə əvvəlki dövrlə müqayisədə 32 pillə mövqeyini gücləndirərək 15-ci yerdə qərarlaşıb. Eyni zamanda, Davos İqtisadi Forumu Azərbaycanda infrastruktur sahəsində atılan addımlara yüksək qiymət verir. Son 15 ildə 15 min kilometr yol çəkilib. Davos İqtisadi Forumu son iqtisadi hesabatında məhz yol infrastrukturunun inkişafına görə, Azərbaycanı dünya ölkələri arasında 34-cü yerdə qərarlaşdırıb. Bu gün ölkəmizdə qazlaşdırma 96 faiz səviyyəsindədir. Müqayisəli təhlil aparsaq Avropa İttifaqının üzvü olan Bolqarıstanın qazlaşma səviyyəsi cəmi 3 faizdir.

***- Elman müəllim, bu günün uğurlu nəticələri qarşıdakı dövr üçün hansı ümumiləşdirmələrə əsas verir?***

- Hesab edirəm ki, əldə edilən nəticələr öncə keçilən yola nəzər salmağı bir tələb kimi qarşıya qoyur. Haradan gəlib, hansı inkişaf səviyyəsinə nail olmuşuq, bunları düzgün dəyərləndirməliyik. Ulu öndər Heydər Əliyev 2003-cü ilə qədər elə bir Azərbaycan yaratdı ki, ölkəmiz dünyada sabitlik məkanı kimi tanındı. 1993-2003-cü illər Azərbaycan tarixinə sabitlik, təhlükəsizlik, inkişaf dövrü kimi daxil oldu. Cənab Prezident son 16 ilə yaxın dövrdə ümummilli lider Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə davam etdirərək Azərbaycanı dünyaya innovasiyalar ölkəsi kimi təqdim etdi. Bu gün inklüziv inkişafa görə Azərbaycanın 80-ə yaxın ölkə arasında ilk yerlərdə təmsil olunması düşünülmüş və məqsədyönlü siyasətimizin nəticəsidir.

Uğurlarımıza söykənərək belə bir ümumiləşdirməni apara bilərik ki, Azərbaycan ulu öndər Heydər Əliyev yolu ilə inamla irəliləyir. Bu yol ölkəmizə hər sahədə davamlı uğurlar qazandırır. Bu baxımdan sözün həqiqi mənasında böyük bir yol keçmişik və tam əminik ki, 2003-cü ildən başlayaraq inkişafın yeni mərhələsindəyik. 2003-2008-ci illərdə görülən işlərin uğurlu nəticəsi olaraq cənab İlham Əliyev 2008-ci il prezident seçkilərində qələbəsini təmin etdi. Neft siyasətinin davamı olaraq qeyri-neft sektoru inkişaf etdirildi. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları icra olundu, bölgələrimizin siması dəyişdi, şəhərlə kənd arasında fərq qismən aradan götürüldü. Bu gün Aaərbaycanın hər bir kəndi, qəsəbəsi inkişaf dövrünü yaşayır. 2013-cü ildə prezident seçkiləri keçirildi. 2013-cü ildən dönüb 2008-ci ilə baxanda gördük ki, inkişafın daha yeni mərhələsindəyik. 2013-2018-ci illərdə görülən işlər cənab İlham Əliyevin 2018-ci il prezident seçkilərində növbəti 7 il üçün qələbəsini şərtləndirdi. 2018-ci ildən dönüb 2013-cü ilə baxanda isə fərqli bir mənzərənin şahidi olduq. Artıq gördük ki, sözün həqiqi mənasında Azərbaycan 10 ən islahatcıl ölkə sırasında yer alıb, xalqımız dünyanın xoşbəxt xalqları sırasındadır, modernləşmə, yeniləşmə dövlət siyasətinin əsasını təşkil edir. Qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərimizin gerçəkləşdirilməsi üçün möhkəm baza mövcuddur. Düşünürəm ki, 2025-ci ildə ölkəmizdə növbəti prezident seçkiləri keçiriləndə 2018-2025-ci illəri daha böyük uğurlarla qeyd edəcəyik. Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz həmin dövrün ən mühüm reallıqları sırasında olacaq.

***✍ Könül Əliyeva,***
***“İki sahil”***

İki sahil.- 2019.- 6 avqust. S. 6.